## YAŞAR QARAYEVİN FİKİRLƏRİ

... Yeni dövrdə ***teatr*** öz realizm mövqelərini daha da dərinləşdirmək yolu ilə getməkdə idi. Saxta monumentalizmdən təmizləmək, psixoloji əsasdan məhrum, qeyri-təbii, suni pafos və ritorikadan uzaqlaşmaq istiqamətində ciddi qələbə əldə edilmişdir.

***Tənqid*** bədii prosesi, ədəbiyyatı, bu ədəbiyyatın hələ şərh və kəşf etmədiyi vəzifələri ilə vəhdətdə, birlikdə görə və ehtiva edə bilir. Onu bütün mürəkkəb vəziyyəti və təmayülləri ilə birlikdə qiymətləndirir. Etik, estetik və sosial amillərin vəhdəti ilə ifadə olunan həqiqi tənqid öz təhlilində bədii əsər müəllifini yalnız təqsirləndirməkdən və ya tərif etməkdən irəli getmirsə, estetik təhlili yalnız primitiv təsdiq və ya primitiv inkarla əvəz edir ki, bu cür tənqiddə nə ictimai-siyasi, nə də estetik mövqe fəallığından bəhs etməyə heç bir əsas yeri qalmır.

***Azərbaycan maarifçiliyi*** əsr yarımlıq bir müddətdə düzxətli bir orbitdə hərəkət etmir. İctimai-fəlsəfi və bədii fikrimizin qət etdiyi yollarda cızılan ən paradokslu əyri, ziddiyətli və enişli-yoxuşlu xətt bəlkə də maarifçiliyinkidir. Çünki o, eyni zamanda iki əsr qütbün “həm orta əsrlərin”, həm də burjua “yeni dövrü”nün təsiri altında inkişaf etməkdə davam edir və bunlardan birincisindən ikincisinə tarixi keçidi həyata keçirir.

Deyirlər Atlantlar Zirvəni-səmanı çiynində saxlayır. Həyatda bilmirəm, amma sənətdə doğrudan da belədir. Şairlər həm səmanı, həm də zamanı çiyinlərində saxlayırlar!

***...”Azərbayançılıq”*** deyəndə biz heç də Avropada və Şərqdə çoxdan məlum olan millətçiliyin müasir Azərbaycan çeşidini nəzərdə tutmuruq. Ən müasir dövlətçilik, milliliyin və demokratiyanın vəhdəti, hüquq və bəşərilik də, ölkədəki bütün xalqların milli mənafeyi də onun tərkib hissəsi kimi birləşə bilməlidir. “Azərbaycançılıq” istilasında Azərbaycanda yaşayan bütün etnik vahidlər, onların hamısı tarixi- təbii bir qanunauyğunluqla qaynayıb-qarışır.

Bizim ədəbiyyatda ağlın dastanına zirvə - Nizamidir, eşqin və qəmin faciəsinə meyar – Füzulidir; qeyrətin ağrısına, namus yanğısına timsal - Sabirdir; həm eşq, həm ağıl, həm də qeyrət üçün borcun, cavabdehliyin ölçüsünə əmsal - Cəlil Məmmədquluzadədir!...

Millət üçün dövlətdən və peşakar dövlət öndərindən qiymətli heç nə yoxdur. Odur ki, məhz dövlətçilik, dövlət dili və mədəniyyət konsepsiyası Heydər Əliyevin bədii-estetik və humanitar-fəlsəfi görüşlərində aparıcı, prioritet mövqeyi təşkil edir. Dövlətdən, milli dövlət mənafeyindən uca heç nə yoxdur. Odur ki, “kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına müxalifətdə durmasın”.

Mənəvi-əxlaqi divan və tərəzidə çəki, sınaq, seçim missiyası ilə həmişə sənət, həmişə elm, ədəbiyyat məşğul olur: dünyanı mənəviyyat və vicdan hesabatlarına hazırlayır. Ziyalının vətəndaşlıq rolu, cavabdehlik statusu da həmişə və hər yerdə onun məhz bu missiyanı hansı uğur və kamilliklə yerinə yetirməsi ilə şərtlənir: hətta zamanın da, ali-ilahi qanunauyğunluğun da hakimlik və münsiflik missiyasını əslində ziyalı gerçəkləşdirir.